


# SELÇUK BAYRAKTAR

**BAYKAR İdarə Heyətinin Sədri / Texnologiya Direktoru**

---

Türkiyənin ilk yerli PUA və silahlı PUA sistemlərinin memarı – qısa uçuş-enmə zolaqlarına malik gəmilərdən qalxıb enə bilən dünyanın ilk silahlı pilotsuz uçuş aparatı olan Bayraktar TB3 və ölkənin ilk yerli pilotsuz qırıcı təyyarəsi Bayraktar KIZILELMA layihələrinin rəhbəri Selçuk Bayraktar, 1979-cu ildə İstanbulun Sarıyer rayonunda anadan olub.

1997-ci ildə nüfuzlu Robert Kollecini bitirdikdən sonra, 2002-ci ildə İstanbul Texniki Universitetinin Elektronika və Rabitə mühəndisliyi ixtisası üzrə bakalavr dərəcəsi alıb. 2004-cü ildə Pensilvaniya Universitetinin (UPenn) Elektrik və Sistem Mühəndisliyi fakültəsində magistr təhsilini tamamlayaraq pilotsuz uçuş aparatlarının qrup halında uçuşu və robotların koordinasiyası üzrə qabaqcıl tədqiqatlar aparıb. Daha sonra MIT (Massachusetts Texnologiya İnstitutu)-nda magistratura və doktorantura təhsili zamanı pilotsuz helikopterlər üçün avtonom uçuş idarəetmə alqoritmləri üzərində çalışıb və 2006-cı ildə ikinci magistr dərəcəsini alıb. O, 2007-ci ildə Türkiyəyə qayıdaraq Baykar şirkətində pilotsuz uçuş aparatları texnologiyalarının inkişafını davam etdirib.

Selçuk Bayraktar 2007-ci ildən Baykar şirkətinin Texniki direktoru (CTO), 2021-ci ildən isə İdarə Heyətinin Sədri vəzifəsində çalışır. Onun işi yerli PUA sistemlərinin aviyonika arxitekturası, uçuşa nəzarət və kruiz alqoritmlərinin hazırlanması, sistemlərin kinematikası və dinamikası, eləcə də elektron avadanlıqlar və quraşdırılmış proqram təminatı üzərində cəmlənir.

Baykarda o, Türkiyənin ilk yerli pilotsuz uçuş aparatı olan Bayraktar Mini PUA-nın və 2014-cü ildən Türkiyə Silahlı Qüvvələrinin istifadəsində olan, öz sinfində dünyanın ən yaxşı dronu kimi tanınan Bayraktar TB2 (silahlı) PUA-nın hazırlanmasına rəhbərlik edib. 2025-ci ilin oktyabr ayına qədər 1,25 milyon saatdan çox uçuş həyata keçirmiş TB2 artıq 36 ölkəyə ixrac olunub. Selçuk Bayraktar həmçinin Türkiyənin ilk 6 ton maksimum qalxış kütləsinə malik döyüş PUA-sı olan Bayraktar AKINCI HPUA-ı (Hücum Pilotsuz Uçuş Aparatı) inkişaf etdirib və bu təyyarə 2021-ci ildə Türkiyə Silahlı Qüvvələrinə təhvil verilib. 2025-ci ilin oktyabrına qədər AKINCI 100 000 uçuş saatını tamamlayıb

və 16 ölkəyə ixrac olunub.

Hazırda o, Bayraktar TB3 və Bayraktar KIZILELMA layihələrinə rəhbərlik edir. TB3 2024-cü il 19 noyabr tarixində TCG Anadolu gəmisindən qalxaraq dünyanın qısa zolaqlı gəmilərdən uçuş və eniş edə bilən ilk silahlı PUA-sı olub. KIZILELMA isə 2022-ci il 14 dekabrda ilk sınaq uçuşunu 2023-cü il üçün planlaşdırılmış tarixdən əvvəl həyata keçirib. Onun rəhbərliyi ilə KIZILELMA və AKINCI birgə uçuşlar icra edərək dünya aviasiya tarixində ilk dəfə olaraq iki döyüş pilotsuz təyyarənin formasiya halında uçuşunu uğurla yerinə yetiriblər.

Selçuk Bayraktar həmçinin Fergani Space Technologies adlı kosmos texnologiyaları şirkətinin qurucusudur. Burada o, aşağı orbitli peyk qrupları və orbital transfer aparatlarının hazırlanmasına rəhbərlik edir.

COVID-19 pandemiyası dövründə Bayraktar Türkiyədə yerli süni tənəffüs cihazlarının hazırlanmasına rəhbərlik edib. BIOSYS, BAYKAR, ASELSAN və ARÇELİK tərəfindən istehsal olunan bu cihazlar bir çox ölkəyə ixrac edilib və ya hədiyyə olunub.

O, həmçinin CanSağlığı (Canan Bayraktar İctimai Sağlamlıq) Fondunun təsisçisi və Himayəçilər Şurasının sədri kimi genetika, immunologiya və nadir xəstəliklər üzrə elmi layihələrə dəstək verir. Bundan əlavə, KÜME (Mədəniyyət və İrs) Fondunun da Himayəçilər Şurasının sədri kimi fəaliyyət göstərir. Fondun məqsədi bəşər sivilizasiyasının tarixini bütöv şəkildə araşdırmaq və qədim dəyərlərin köməyi ilə müasir sosial problemlərə həll tapmaqdır.

Selçuk Bayraktar 2021-ci il 1 aprel tarixində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Qarabağ Ordeni ilə təltif olunub. O, həmçinin 2022-ci ildə Ukrayna Prezidenti Vladimir Zelenski tərəfindən “Ukrayna Dövlət Xidmət Ordeni” ilə mükafatlandırılıb.

2023-cü il 4 aprel tarixində Azərbaycan Müdafiə naziri Zakir Həsənov tərəfindən Hərbi Əməkdaşlıq Medalı ilə, 2023-cü il 2 oktyabr tarixində isə Azərbaycan Prezidenti tərəfindən ASAN Xidmətin “Səmərəli Əməkdaşlıq Medalı” medalı ilə təltif olunub.

2023-cü il 18 oktyabrda Mali Prezidenti Assimi Goita tərəfindən ölkənin ən yüksək mükafatı olan Mali Milli Ordeni, 2024-cü il 28 fevralda Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurası tərəfindən “1-ci dərəcəli Milli Təhlükəsizlik və Müdafiə Ordeni”, 2024-cü il 9 oktyabrda isə Qırğızıstan Prezidenti Sadir Japarov tərəfindən Qırğızıstan Dövlət “Dank” Ordeni ilə təltif olunub.

Selçuk Bayraktar həmçinin T3 Fondunun Himayəçilər Şurasının sədridir. Bu fond milli texnologiya təşəbbüsünü dəstəkləyir, istedadlı gəncləri yerli texnologiya istehsalına təşviq edir və TEKNOFEST – dünyanın ən böyük aviasiya və texnologiya festivalını təşkil edir. TEKNOFEST 2022-ci ildə Azərbaycanda, 2025-ci ildə isə Şimali Kipr Türk Respublikasında keçirilib və tədbirin beynəlxalq təsirini artırıb.

Selçuk Bayraktar 2016-cı ildə Sümeyye Erdoğan Bayraktar ilə evlənib. Cütlüyün iki övladı var. Selçuk Bayraktar həmçinin xüsusi pilot lisenziyasına malikdir.